

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 84 (23.496)

4 iyun 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər rayonuna səfərə gedib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev iyunun 3-də Tərtər rayonunda Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun, 110/35/6 kilovoltluq “Tərtər” elektrik yarımstansiyasının, Tərtər Olimpiya İdman Kompleksinin, “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmin gün Ağdam rayonu ərazisində yerləşən “N” hərbi hissədə olub.

* * *

Dövlətimizin başçısı iyunun 3-də Ağcabədi rayonunda səfərdə olub.

Prezident İlham Əliyev dənli bitki toxumlarının emalı zavodunun, “ASAN xidmət” mərkəzinin, Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışlarında, həmçinin rayonun Hindarx qəsəbəsində fermer Nizami Hüseynovun əkin sahəsində taxıl biçininə başlanması mərasimində iştirak edib.



## İcmal

# Naxçıvan: dünəninin yaşadılması ilə bugünkü inkişafı paralel aparılan məkan

### Son 25 ilin hər anında müşahidə etdiyimiz bu mənzərəyə ötən ayın xronikasında da nəzər salaq

*Ümummilli liderimiz Heydər Əliyev deyirdi: **“Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır”.** Ulu öndər ölkəmizin hər yerində abidələrin bərpa olunmasını, yaşadılmasını tövsiyə edirdi. Muxtar respublikamız zəngin tarixə malikdir. Burada əldə olunan maddi mədəniyyət nümunələri Naxçıvan ərazisində Qədim Daş dövründən başlayaraq bu yurdun ilkin sivilizasiyalı yaşayış məskənlərindən biri olduğunu sübut edir. Tədqiqatlar göstərir ki, əcdadlarımız Naxçıvan ərazisində hələ eramızdan əvvəl yaşamış və yaratmışlar. Onların özlərindən sonra qoyub getdikləri tarix və mədəniyyət abidələri bu qədim yurdun Azərbaycançılıq möhürüdür. Bəli, dahi şəxsiyyətin uzun illərdən bəri digər sahələrdə olduğu kimi, keçmişimizin yaşadılması ilə bağlı ideyalarına sədaqət Naxçıvanın hərtərəfli, həm də qədimliyinin qorunması ilə müasir müstəvidə inkişafına səbəb olmuşdur. Bunu ötən ayın xronikasında da müşahidə etdik.*



Qədim yurdumuzda insanların zaman-zaman formalaşdırdığı məişət mədəniyyətinin izlərini özündə yaşadan abidələrdən biri də buzxanalardır. Keçmişdə buza olan tələbatı ödəyən, ərzaq məhsullarının uzun müddət saxlandığı, həm də zaman-zaman tarixi və mədəni irsimizin abidəsinə çevrilən buzxanaların Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə bərpası mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikamızdakı abidələrə yeni həyat verilməsi işinin davamı olaraq mayın 5-də Naxçıvan şəhər buzxanası bərpa və yenidənqurmadan sonra istifadəyə verilmiş, abidədə “Naxçıvan Mətbəxi” Kulinariya Mərkəzi üçün iş şəraiti yaradılmışdır. Ali Məclis Sədri tədbir iştirakçılarını ölkə əhəmiyyətli tarixi abidəmiz olan Naxçıvan şəhər buzxanasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: ***“Abidələri yaşatmaq xalqın tarixini, mədəniyyətini, dəyərlərini yaşatmaq deməkdir. Bu gün tariximiz təkcə kitablarda deyil, eyni zamanda abidələrdə yaşayır. Xalqımızın neçə əsr bundan əvvəlki təfəkkürünün məhsulu olan abidələri qorumaq, bərpa edərək yaşatmaq, gələcək nəsillərdə tariximiz və qədim mədəniyyətimiz haqqında təsəvvürlər formalaşdırır”.***

Həm muxtar respublika sakinlərinə, həm də qonaqlarımıza xidmət göstərəcək bu məkan, eyni zamanda onları diyarımızın qədim tarixi ilə də tanış edəcəkdir.

Ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi həyatında hər zaman muxtar respublikamızın özünəməxsus yeri, mövqeyi olmuşdur. Elə ötən əsrin 1941-1945-ci illərində İkinci Dünya müharibəsində bütün azərbaycanlılar kimi, Naxçıvanın igid övladları da ölkəmizi təmsil edərək faşizm üzərində böyük qələbənin qazanılmasında şücaət göstərmişlər. Muxtar respublikada müharibə iştirakçılarına xüsusi qayğı ilə yanaşılır. Hər il burada faşizm üzərində qələbə günü qeyd edilir, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilir, onlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri və mənzillərlə təmin olunurlar.

May ayının 9-da tarixi qələbənin 75-ci ildönümü ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da qeyd olunmuşdur. Həmin gün Ali Məclisin Sədri Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gələrək abidə önünə gül dəstəsi qoymuş, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirmişdir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Vətən müdafiəçiləri cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur”.*** Ulu öndərimizin hər bir kəlamı fəaliyyət proqramına çevrilən muxtar respublikamızda Vətənimizin müdafiəsi zamanı sağlamlıqlarını itirən şəxslər hərtərəfli qayğı ilə əhatə olunublar. Onların sağlamlıqlarının bərpası, mənzil-məişət şəraitinin yaxşılaşdırılması və minik avtomobilləri ilə təmin olunması hər an diqqət mərkəzində saxlanılır. Elə mayın 9-da – faşizm üzərində Qələbənin 75-ci ildönümündə Naxçıvan şəhərində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 5 nəfərə, eləcə də Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 1 nəfərə “NAZ Lifan-330” markalı minik avtomobillərinin təqdim edilməsini də bu qayğının davamı kimi dəyərləndirmək olar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş, Vətən qarşısında borclarını layiqincə yerinə yetirdiklərinə görə avtomobillə təmin olunanlara təşəkkürünü bildirmiş və avtomobillərin açarlarını onlara təqdim etmişdir.

Ulu öndərimizin anadan olduğu gün hər il ölkəmizdə onun əziz xatirələri ilə anılır. Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmiş, daha sonra Heydər Əliyev Muzeyinə gələrək böyük şəxsiyyətin həyatı və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxmışdır. Heydər Əliyev Muzeyinin əməkdaşları ilə görüşən Ali Məclis Sədri onlara təşəkkürünü bildirərək demişdir: ***“Heydər Əliyev Muzeyi Azərbaycanda ümummilli liderimizin sağlığında – 1999-cu ildə yaradılan ilk muzeydir. Muzeyin ilk ziyarətçisi də ümummilli liderimiz Heydər Əliyev olmuş, dahi şəxsiyyət muzeyin fəaliyyəti ilə bağlı tapşırıq və tövsiyələrini vermişdir. Ötən dövrdə muzeyin fondu xeyli zənginləşmiş, mühüm tədbirlər keçirilmişdir. Muzeyin yeni eksponatlarla zənginləşdirilməsi bundan sonra da diqqətdə saxlanılmalı, internet saytı yenilənməli, virtual fəaliyyət təmin olunmalı, ziyarətçilərə ətraflı məlumat verilməli, dahi şəxsiyyətin həyat və fəaliyyəti təbliğ olunmalıdır”.***

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə təməlini qoyduğu quruculuq prosesi uzun illərdir ki, muxtar respublikamızda ardıcıl şəkildə və yüksək səviyyədə davam etdirilir. Mayın 10-da Naxçıvan şəhərində yeni quruculuq ərmağanı olan Sahil Parkının istifadəyə verilməsi bu siyasətin uğurla həyata keçirilməsinin növbəti təsdiqi oldu.

Açılış mərasimində iştirak edən Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümündə Naxçıvan şəhərində 20 hektarlıq yeni parkın istifadəyə verildiyini bildirmiş, ulu öndərin doğum günü və yeni parkın açılışı münasibətilə muxtar respublika sakinlərini təbrik etmişdir.

Kənd təsərrüfatının inkişafı, xüsusilə də ərzaq təhlükəsizliyinin təminatı əsas prioritet olan muxtar respublikamızda son illər qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası aqrar sahənin yeni mərhələdə sürətli irəliləyişinə stimul yaratmışdır. Təbii ki, kənd təsərrüfatının əsas sahələrindən biri əkinçilikdirsə, digəri heyvandarlıqdır. Bu iki sahənin inkişafının paralel aparılması isə həmişə səmərəsini göstərmişdir. Elə buna görə də heyvandarlıqda damazlıq işinin düzgün qurulması və cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılır, səmərəli metod kimi süni mayalanma tədbirlərinə geniş yer verilir. Görülən işlər məhsul istehsalının artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Naxçıvanda yaradılan Süni Mayalanma Mərkəzi isə heyvandarlığın inkişafında yeni mərhələnin əsasını qoymaqdadır. Mayın 12-də Ali Məclisin Sədri Süni Mayalanma Mərkəzində görülən işlərlə maraqlanmış, muxtar respublikada süni mayalanma işinə ciddi diqqət yetirilməsi, Kənd Təsərrüfatı Nazirliyinin heyvandarlığın inkişafında rayonlaşma aparması, ərazilərə uyğun heyvanların saxlanılmasının elmi əsaslarla öyrənilməsi, sahibkarlar və əhalinin maarifləndirilməsi, xüsusilə də heyvandarlığın inkişafında əsas məsələlərdən biri olan təbiətə ziyan vurulmaması ilə bağlı tapşırıqlar vermiş, muxtar respublikada təbiətin qorunmasının birinci məsələ olduğunu bildirmişdir.

Sözsüz ki, heyvandarlıq sahəsində muxtar respublikamızda yaradılan bu mərkəz heyvanların cins tərkibinin yaxşılaşmasına, bunun sayəsində isə insanların gəlirlərinin nəzərəçarpacaq dərəcədə artmasına, baytarlıq təbabəti üzrə ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan gənclərin təcrübələrini genişləndirmələrinə, mütəxəssis kimi formalaşmalarına şərait yaradacaqdır.

Məlum olduğu kimi, ötən ilin sonundan etibarən pandemiya inkişaf etmiş dünya ölkələrində belə, minlərlə insanın həyatlarını itirmələri ilə nəticələnmiş, dünya iqtisadiyyatına ciddi ziyan dəymiş, insanlar sosial problemlərlə üzləşməli olmuşlar. Ölkəmizdə əsaslı qabaqlayıcı tədbirlər pandemiyanın gətirəcəyi təhlükələrin qarşısını xeyli alsa da, bir sıra çətinliklər yaşandı. Muxtar respublikamızda da bu təhlükənin ilk günlərdən qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlər həyata keçirilmişdir. Ali Məclis Sədrinin 2020-ci il 24 mart tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondu” yaradılmış və “Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası” təsdiq edilmişdir. Fərmana verilən tapşırıqlardan irəli gələrək fond üçün xüsusi xəzinə hesabı açılmış, vəsaitlərin fonda qəbulu və cəmləşdirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilmişdir.

Ardı 2-ci səhifədə

Açılmış xəzinə hesabının rekvizitləri ictimaiyyətə təqdim edilmiş, rəsmi internet saytı fəaliyyətə başlamış, ianə edən fiziki və hüquqi şəxslər, həmçinin vəsaitlərin ümumi həcmi barədə məlumatlar yerləşdirilmişdir. Ötən dövrdə fonda 437 hüquqi və 569 fiziki şəxs tərəfindən, ümumilikdə, 5 milyon 47 min 189 manat vəsait köçürülmüşdür. Fondun vəsaitlərindən 3 milyon 326 min 861 manatı koronavirusla mübarizə tədbirlərinə xərclənmişdir. Ali Məclis Sədrinin sərəncamı ilə belə tədbirlərdə iştirak edənlərə mükafat və müddətli əlavələr ödənilmişdir. Hazırda fondda qalan vəsait pandemiya ilə mübarizə tədbirlərinə xərclənməkdədir.

Ötən ayın 14-də Naxçıvan Muxtar Respublikasında pandemiya ilə mübarizə sahəsində görülən işlərlə bağlı daha bir tədbir keçirilmiş, bu məqsədlə alınmış yeni tibbi avadanlıqlar muxtar respublikanın səhiyyə müəssisələrinə təqdim olunmuşdur. Ali Məclisin Sədri tədbirdə iştirak etmiş, muxtar respublikada pandemiya ilə mübarizə tədbirlərini həyata keçirənlərə – səhiyyə işçilərinə, gigiyena və epidemiologiya mərkəzlərinin kollektivlərinə, daxili işlər orqanlarının və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına, baytarlıq təbabəti işçilərinə, eləcə də Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait köçürənlərə təşəkkürünü bildirmişdir.

Muxtar respublikamızda quruculuq coğrafiyasının ildən-ilə genişləndirilməsi artıq diyarımızın bütün bölgələrini abad yurd yerinə çevirmiş, insanların rahat yaşayışına, rifah halının yüksəlməsinə səbəb olmuşdur. Culfa şəhərində və rayonun kəndlərində aparılan quruculuq işləri burada yaşayan insanlara verilən dəyər olmaqla yanaşı, həm də yeni-yeni abad ünvanların yaranması ilə nəticələnmişdir. Mayın 15-də Culfa şəhərinin Heydər Əliyev prospektinin əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi növbəti belə ünvanlardan biridir. Həmin gün Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evinin açılması isə sakinlərin yeni texnologiyaların imkanlarından və müasir rabitə xidmətindən istifadəsinə yaradılan şəraitdir. Hər iki tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılışı bildirən lentləri kəsmiş, görülən işlərlə tanış olmuş və demişdir: ***"Ölkəmizdə həyata keçirilən dövlət proqramlarının tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında da yeni proqramlar qəbul olunaraq icra edilir. Bu gün Culfa şəhərinin Heydər Əliyev prospektinin, rayonda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evinin istifadəyə verilməsi də dövlət proqramları çərçivəsində görülən işlərdir".***

İllər sonra da cari il may ayının 18-ni Şərur rayonunun Muğancıq-Mehrab, Muğancıq-Müslüm və Məmmədsabir kəndlərinin sakinləri kompleks quruculuq işlərinin başa çatdırılıb yeni sosial obyektlərin onların istifadəsinə verildiyi gün kimi xatırlayacaqlar. Həmin gün Muğancıq-Mehrabda 244 şagird yerlik məktəbin, Muğancıq-Mehrab və Muğancıq-Müslüm kəndlərini əhatə edən inzibati ərazi dairəsi üzrə nümayəndəliyin yerləşəcəyi kənd mərkəzinin, Muğancıq-Mehrabda xidmət mərkəzinin istifadəyə verilməsi bu kəndlərin sakinlərini uzun illər qarşılaşdıqları sosial qayğılardan azad etmişdir. Məmmədsabir kəndində kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının sakinlərin istifadəsinə verilməsi onlara nə qədər sevinc bəxş etmişsə, Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir kənd avtomobil yolunu abad görmək bu kəndlərin insanlarına ikiqat sevinc yaşatmışdır. Çünki abad yurd insanın rahat yaşayışı deməkdirsə, abad yol vaxt itkisinin, təhlükənin qarşısının alınmasına töhfədir.

Açılış mərasimlərinin hər birində iştirak edən Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüş, onları təbrik etmiş, təhsil, səhiyyə, mədəniyyətin, kənd təsərrüfatının inkişafı, torpaqların əkilməsi, qurulub yaradılanların qorunması ilə bağlı aid orqanlara və kənd sakinlərinə tövsiyə və tapşırıqlarını vermişdir. Yaşadıqları kəndlər muxtar respublikanın abad kəndləri sırasına qoşulduğu üçün sakinlər dövlətimizə minnətdarlıqlarını bildirmişlər.

Muxtar respublikamızın iqtisadiyyatının əsasında kənd təsərrüfatının özünəməxsus yeri olduğu üçün bu sahə daim diqqətdə saxlanılır. Mayın 21-də muxtar respublikada yaz-tarla işlərinin vəziyyətinin müzakirə edilməsi, yeni alınmış kənd təsərrüfatı texnikalarına baxış keçirilməsi aqrar sahədə görülən ardıcıl işlərin davamıdır. Ali Məclisin Sədri tədbirdə iştirak etmiş, yeni texnikaların bu sahədə təcrübəsi olan şəxslərə təqdim olunması və onlardan səmərəli istifadə ilə bağlı tapşırıqlar vermişdir.

Muxtar respublikamızın zəngin su ehtiyatlarına malik olması diyarımızı ölkəmizin əsas mineral su ixracatçısına çevirmişdir. Bu gün Naxçıvanın dayanıqlı sosial-iqtisadi inkişafı təbii sərvətlərimizin sənaye üsulu ilə istehsalına şərait yaratmışdır. "İxrac ili"ndə "Badamlı" mineral suyunun şöhrətinin geri qaytarılması, bu məqsədlə Şahbuz rayonunun Badamlı qəsəbəsində "Badamlı" Mineral Sular Zavodunun tikilərək mayın 22-də istifadəyə verilməsi görülən işlərin davamıdır.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş və demişdir ki, ***"Badamlı" mineral suyunun ikinci dəfə sənaye üsulu ilə istehsalına 2009-cu ildə başlanılmışdır. Həmin il Badamlı qəsəbəsindən Naxçıvan şəhərinə qədər su xətti çəkilmiş və yeni zavod istifadəyə verilmişdir. Xarici bazarda "Badamlı" suyuna tələbatın artması yeni zavodun tikilməsini zəruri etmişdir. Eyni zamanda mineral su ixracına sertifikat verən təşkilatların rəylərində də qeyd olunur ki, mineral sular mənbədən ən çox 3 kilometr məsafəyə daşınaraq istehsal olunmalıdır".*** Bütün bunların muxtar respublikanın ixrac imkanlarının artırılmasına və məşğulluğun təminatına mühüm töhfə olmasını, zavodda 72 nəfərin işlə təmin edilməsini vurğulayan Ali Məclisin Sədri fəaliyyətin səmərəli qurulmasının gələcəkdə yeni iş yerlərinin açılmasına və digər təbii sərvətlərimizdən də səmərəli istifadəyə imkan verəcəyini bildirmişdir.

Muxtar respublika rəhbəri kollektivlə görüşmüş, onlara qurulan avadanlıqların qorunması, suyun keyfiyyətli istehsalı və zavodun səmərəli fəaliyyəti üçün çalışmaları, mütəxəssis kimi formalaşmaları, ərazidə yaşıllaşdırma işlərinin davam etdirilməsi, istehsal və laboratoriya sənədlərinin zavodun internet saytında yerləşdirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasının çağırılması haqqında" 2020-ci il 20 may tarixli Qərarına əsasən mayın 23-də Ali Məclisin növbəti sessiyası keçirilmiş, sessiyanın gündəliyinə Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təyin edilməsi, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının seçilməsi kimi məsələlər verilmişdir. Ölkə qanunvericiliyinə əsasən Səbuhi Hidayət oğlu Məmmədovun namizədliyi səsə qoyulmuş və o, Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilmişdir. Sessiyada müzakirə olunan ikinci məsələ ilə əlaqədar hazırlanmış qanun layihəsi oxunmuş və səsə qoyularaq qəbul edilmiş, üçüncü məsələ ilə bağlı İntizam Komissiyası yaradılmış, komissiyaya Ali Məclisin deputatları sırasından 5 üzv seçilmişdir.

Ali Məclisin Sədri sessiyaya yekun vuraraq demişdir: "Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin ötən dövründə həyata keçirilən tədbirlər, xüsusilə də insanların sağlamlığının, ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər və iqtisadi sabitliyin qorunması ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Qarşıdakı dövrdə də ümummilli liderimizin yoluna sədaqət muxtar respublikada kompleks inkişafa səbəb olacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Liderin vəzifəsidir xalqı qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir... Biz də onun yolu ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik".***

Muxtar respublikamızda həyata keçirilən quruculuq və digər tədbirlərin təqdirolunası tərəfi ondan ibarətdir ki, burada həmin tədbirlər bölgələr arasında o qədər dəqiqliklə bölünmüşdür ki, heç bir rayon müasir sosial-iqtisadi inkişafdan geridə qalmır. May ayında Şərur və Kəngərli rayonlarında kompleks quruculuq işlərinin aparılması dediklərimizi bir daha sübut edir. Şərurlular kimi, kəngərlilər də ötən ay yaşadıqları bölgənin bir hissəsinin abadlaşdırılması, həyatlarına müasir inkişafın daxil olması sevincini yaşadılar. Mayın 27-də – Respublika Günü ərəfəsində Kəngərli rayonunda "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin rayon filialının açılması, yeni içməli su və kanalizasiya sistemlərinin qurulmağa başlanılması və Şahtaxtı kəndindəki Şərq hamamının bərpa olunması müstəqilliyimizin bəhrəsi, bu bəhrədən rayonlarımıza düşən paydır.

Həmin gün Kəngərli rayonunda olan Ali Məclisin Sədri muxtar respublikada maliyyə sahəsində aparılan islahatlar və bank sektorunun inkişafına göstərilən qayğı nəticəsində yaradılan "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialının açılışında iştirak etmiş, rayonda yeni içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması layihəsinə baxmış, muxtar respublikanın qədim yaşayış məntəqələrindən olan Şahtaxtı kəndindəki Şərq hamamında aparılan bərpa işləri ilə maraqlanmışdır.

*May ayının ilk quruculuq ərməğanı, həm də qədimliyi ilə müasir cəmiyyətimizə bəxş edilən Naxçıvan şəhərindəki buxzananın, son quruculuq töhfəsi kimi isə Şahtaxtı kəndindəki Şərq hamamının bərpa olunması milli dəyərlərimizə və mədəni irsimizə sahiblik nümunəsi kimi böyük əhəmiyyət daşıyır. Buxzana və hamamlar məişətimizin ən vacib atributları olmaqla yanaşı, həm də qədim dövrlərə aid abidə kimi naxçıvanlıların mədəni səviyyəsini, idrak və məfkurəsinin zənginliyini təsdiq edir. Və bu gün muxtar respublikamızda dünənimizin yaşadılması ilə bugünkü inkişafın paralel aparılması bir daha sübut edir ki, babalarımızın, atalarımızın yolunu davam etdirən oğullar var. Tarixi yaşadanları, el qədrini bilənləri isə tarix özü yaşadır, belə insanların qiymətini zaman özü verir.*

✍ **Mətanət MƏMMƏDOVA**

# Yaradılan şərait geniş imkanlar açır



*Bu gün hərtərəfli düşünülmüş siyasətlə həyata keçirilən böyük iqtisadi islahatlar, Azərbaycanın dünya birliyinə inteqrasiyası, xalqla iqtidar arasında yaranan birlik ölkəmizin hər yerində, o cümlədən muxtar respublikamızda, onun, demək olar ki, bütün şəhər və rayonlarında çox sürətli inkişafa səbəb olub. Bu inkişafın bir yaşayış məntəqəsinin timsalında göstəriciləri ilə oxucularımızı tanış etmək üçün üz tuturuq Culfa rayonuna.*

Yolboyu muxtar respublikamızın təbiət gözəlliklərini seyr etdikcə insana elə gəlir ki, Tanrı təbiətin nəyə qadir olduğunu elə bu yerlərdəki gözəlliklərlə diktə edir. Düşünürsən ki, təbiətin elə sirləri var ki, onları öyrənməyə insan zəkası hələ də yetmir. Seyr etdiyim çəmənlərə, düzlərə baxanda düşünürəm ki, bahar, sanki öz fırçasıyla çəmənlərə naxışlar çəkmək üçün bütün məharətindən istifadə edib. Papaq-papaq qalxan əlvan çiçəklər "əl-ələ tutub" sərin sübh mehinin nəvazişindən, sanki nazlanırlar. "Gözəlliyin xəlvətə çəkilməsi var", – deyirlər. Ancaq nə qədər gizlənsə də, yenə insan gözü axtardığı gözəlliyi tapıb ondan zövq alır. Biz də dağların, sanki günəşə yaxın olduğu bu yerlərdə gözəlliyin xəlvətə çəkilmədiyini, əksinə, sanki insanların gözünü, könlünü oxşamağa tələsdiyini gördük. Bütün bu gözəlliklərə qurulub yaradılan və insanların rahat yaşayışını təmin edən sosial obyektlər də öz töhfəsini verir.

Muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, informasiya-kommunikasiya sisteminin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqi istiqamətində də mühüm işlər görülür. Yaxın günlərdə Culfa rayonunda da Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evi istifadəyə verilib. Rayonda üz tutduğumuz ünvan da elə bu müəssisə oldu. Burada "Naxçıvanpoçt" publik hüquqi şəxsin Culfa filialının rəisi Samir İbrahimovla söhbətləşirik. O bildirir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Culfa Rayon Rabitə İdarəsi, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Culfa rayon filialı, "Naxtel" müştəri xidmətləri, "Naxçıvanpoçt" publik hüquqi şəxsin Culfa rayon filialının fəaliyyəti üçün lazımi iş şəraiti yaradılmışdır. Binada müvafiq sahələrə uyğun olaraq tədris, arxiv, mühəndis, poçt göndərişləri, avtomat telefon stansiyası, daxili şəbəkə, təlimat və digər xidməti otaqlar, iclas və xidmət zalları, bufet yerləşir. Filial 19-u kənd, 1-i hərbi şəhərcikdə olmaqla, 20 poçt bölməsindən ibarətdir. Müasirtipli binalarla təmin olunmuş bütün poçt bölmələri kompüterləşdirilib və POS-terminallar quraşdırılıb. Poçt bölmələrində digər xidmətlərlə yanaşı, kommunal ödənişlərin, sığorta və üzvlük haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kreditlərin ödənilməsi, pensiya və sosial yardımların paylanması da həyata keçirilir. Bununla yanaşı, poçt bölməsində əhaliyə itmiş əşyaların sahibinə çatdırılması və "Naxtel" müştəri xidmətləri də göstərilir.

Rabitə Evi ilə tanış olarkən buraya kommunal ödənişlər üçün üz tutan rayon ziyalısı Ədalət müəllimlə həmsöhbət oluruq. O, yaradılan şəraitdən razılığını bildirərək qeyd edir ki, Culfa şəhəri də digər bölgələrimiz kimi, həmişə dövlətimizin qayğısı ilə əhatə olunub. O cümlədən rabitə sisteminin də günün tələblərinə uyğunlaşdırılmasına çalışılıb. Lakin bununla bərabər, uzun illər müəyyən çətinliklər də var idi. Artıq yenidən qurulan binanın istifadəyə verilməsi ilə bu çətinliklər də aradan qaldırılıb. Nəinki rayon mərkəzinə, hətta ən ucqar kəndlərimizə də fiber-optik kabellər çəkilib. Bu gün rayonumuzda internet əlaqələri günün tələblərinə cavab verir. Belə ki, mən özüm də Bakı şəhərindəki övladlarımla və xaricdə yaşayan qohumlarımla internet vasitəsilə əlaqə saxlaya bilirəm. Bu gün bütün dünyada tüğyan edən pandemiya dövründə şagirdlərimizin təhsildən geri qalmaması üçün keçilən onlayn dərslər də hər evdə internetin olmasının vacibliyini bir daha sübut etdi. Aparılan yenidənqurma təbii ki, bu gün şəhərimizin xarici görünüşünə də töhfə verib. Belə ki, Heydər Əliyev prospektinin genişləndirilməsi də dediklərimizə sübutdur. Bizim borcumuz isə yaradılan bu şəraiti qorumaq və gələcək nəsillərə verməkdir.



Ali Məclisin Sədri yeni texnologiyaların muxtar respublikanın rayonlarında da tətbiqinin əhəmiyyətindən danışarkən demişdir: ***"Müasir iş şəraiti məsuliyyəti daha da artırmalı, avadanlıqlardan düzgün istifadə olunmalı və göstərilən xidmətin səviyyəsi yüksəldilməlidir. Çünki dövlətin həyata keçirdiyi bu tədbirlərin əsas məqsədi də ondan ibarətdir ki, sakinlər yaşadıqları yerlərdə hərtərəfli rabitə və internet xidmətləri ilə təmin olunsunlar, vaxtlarını daha çox öz təsərrüfatlarına və işlərinə sərf etsinlər".***

Rayonda olduğumuz zaman Təhsil Şöbəsinin metodkabinə müdiri Kamran Cəfərovla da həmsöhbət olduq. O, Culfa şəhərində yaradılan şəraitə, göstərilən qayğıya görə öz minnətdarlığını bildirdikdən sonra qeyd etdi ki, pandemiya ilə əlaqədar dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də mart ayından etibarən təhsil sahəsində müvəqqəti fasilələr yaranıb. Muxtar respublikanın təhsil işçiləri yaranan vəziyyətdə şagirdlərin təhsildən geri qalmamaları üçün gündəlik onlayn dərslər keçirlər. Şagirdlərin onlayn, həmçinin müxtəlif televiziya kanallarında yayımlanan dərslərə cəlbində, heç şübhəsiz ki, yaradılan şərait də başlıca rol oynayır.

Onu da qeyd edək ki, yaxın günlərdə onlayn görüş vasitəsilə şagirdlərə XI sinif üzrə buraxılış imtahanlarının təşkili, ali təhsil müəssisələrinə qəbul qaydaları, XI sinif üzrə mart-iyun aylarının tədris proqramlarına əsasən müəyyən mövzular məlum məsələlərə görə tədris edilmədiyi üçün onların buraxılış imtahanından çıxarılması haqqında rayon Təhsil Şöbəsinin metodkabinə müdiri Kamran Cəfərov və məktəb psixoloqu Gülnar Cəfərova tərəfindən ətraflı məlumat verilib. Görüşdə 26 tam orta məktəbin 80-ə yaxın XI sinif şagirdi iştirak edərək hərtərəfli məlumatla təmin ediliblər.

*Sevindirici haldır ki, muxtar respublikamızın bütün rayon və kəndlərində doğma yurduna, yaradılan şəraitə sahib çıxan insanlar bu yolda böyük uğurlara imza atırlar. Biz də hər bir zəhmət adamına "əlləriniz var olsun", – deyirik.*

✍ **Telli MƏMMƏDOVA**

# Mətbuat zamanın aynası, illərin, qərinələrin, əsrlərin gələcək nəsillərə ünvanlanan salnaməsidir

***Müdriklərdən biri deyib ki, keçmişdən yazılanlar xatirələr, gələcəkdən yazılanlar arzular, bu gündən yazılanlar isə reallıqdır. Ona görə də bu gündən, reallıqdan yazmaq istəyirəm.***

Artıq beş ilə yaxındır ki, əməkdaşı olduğum “Şərq qapısı” qəzetinə tələbə olanda – 2002-ci ildə, düz 18 il bundan əvvəl üz tutmuşdum. Həmin illərdə kiçik, şəraitsiz bir yerdə yerləşirdi redaksiya. Böyük bir binanın birinci mərtəbəsi, dar dəhlizlər, yarıişıqlı otaqlarda jurnalistlər günün nəbzini tutmağa, oxucu marağına uyğun yazılar qələmə almağa, uzun illərdən bu günə kimi qəzetin yaşatdığı adət və ənənələri qoruyub saxlamağa çalışırdılar.

Həmin illərdə bir neçə məqaləm dərc olunmuşdu “Şərq qapısı” qəzetində. O nömrələri keçmiş günlərin əziz xatirəsi kimi hələ də saxlayıram. Cəmi iki il kənar əməkdaşı olduğum “Şərq qapısı” 14 ildən sonra yenə məni özünə cəlb etdi. Aradan uzun illər keçsə də, yaradıcılığa olan sonsuz sevgim məni yenə qeyri-ixtiyari olaraq eyni ünvana – “Şərq qapısı” redaksiyasına yönəltdi. Amma bu dəfə müasir, adına yaraşan bir yerdə yerləşirdi bu ünvan. Və illər sonra bir sayını nəşrə hazırlamaq üçün bəzən düz gecəyarısınadək redaksiyada kollektiv şəkildə əmək sərf etdiyimiz bu qəzet mənim üçün həm də ikinci ev oldu.

100 ilə yaxındır ki, qəzetin yaradıcı kollektivi jurnalistikanın yüksək amalına həmişə sədaqətlə xidmət edib, 70 illik sovetlər dönəmində milliliyimizi, tariximizi yaşatmağa çalışıb, müstəqillik dövrünün ədəbi salnaməsinə yeni parlaq səhifələr yazıb, ağıl və təmkin, səbir və dəyanət yolları ilə addımlayarkən heç bir qasırğa, boran, çovğundan qorxmayıb, yolundan, amalından, məqsədindən dönməyən bu mətbu orqan öz səhifələrində tarix yazıb. Elə bir tarix ki o tarix xalqımızın dəyanətini, mərdliyini, illərin əsarətindən azadlığa gedən yolunu, dostunun, düşməninin kim olduğunu, zəfər dastanını sətirlərdə, məqalələrdə toplayıb. Naxçıvanın iki əsrə yaxın tarixini öz arxivində qoruya bilib. Burada Naxçıvanın inkişafı üçün imzalanan sərəncamlar, fərmanlar, qəbul edilən qərarlar, tarixin həmin dövrünün salnaməsinə çevrilən neçə-neçə məqalələr dərc olunub. Bütün bunlar “Şərq qapısı” qəzetinin xalqımızın sabahkı taleyi, dövlətimizin gələcək müqəddəratı üçün göstərdiyi əhəmiyyətli xidmətlərdir. Vaxtilə dünyanın supergüclərindən biri olan Sovetlər Birliyini məhvərindən laxladan mühüm tarixi qərar da bu qəzetdə dərc edilib. Həmin vaxt Naxçıvan 70 il idi ki, 15 respublikanı özündə birləşdirən, onlara hökm edən bir quruluşa etirazını bildirib öz müstəqilliyini elan etdi. Kiçik bir diyar – bəlkə də, o vaxta kimi bir çox dövlətlərdə tanınmayan Naxçıvan SSRİ kimi nəhəng bir dövlətin tərkibindən çıxıb özünü müstəqil elan etdi. Və həmin gecə 70 ildir ki, nəşr olunan qəzetin tarixində ilk dəfə olaraq sovet rəhbərinin məruzəsi bir kənara atıldı. Müstəqil respublikanın qəzetində 19 yanvar 1990-cı il Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyasında, muxtariyyətin Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq (SSRİ-nin Azərbaycanın və Naxçıvanın suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək öhdəliklərinə əməl etməməsi və 1921-ci il çoxtərəfli Qars müqaviləsinin şərtlərini pozması səbəblərindən) SSRİ-nin tərkibindən ayrılması barədə qəbul etdiyi qərar dərc olundu. Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik İsa Həbibbəyli “Şərq qapısı” qəzetinin 95 illiyi ilə bağlı qələmə aldığı “Şərq qapısı” məktəbi: uzaqdan və yaxından” məqaləsində bu barədə yazırdı: “Şərq qapısı”qəzeti həmin qərarı çap etməklə müstəqil Naxçıvan Muxtar Respublikasının mətbuat orqanı funksiyasını həyata keçirmişdir. 1990-cı ilin yanvar-fevral aylarında “Şərq qapısı” qəzetinin 8 sayı o zaman bütün qəzetlərdə məcburi şəkildə yazılan “Bütün ölkələrin proletarları, birləşin!” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda!” çağırışı ilə çap olunmuşdur. Bu təkcə “Şərq qapısı” qəzetinin yox, XX əsr sovet mətbuatının tarixində nadir hadisədir.






Beləliklə, 1990-cı ildə “Şərq qapısı” Azərbaycanda ilk müstəqil qəzet kimi nəşr edilmiş, ölkənin və xalqın milli maraqlarına xidmət göstərmişdir. “Şərq qapısı” qəzetinin senzura nəzarəti olmadan çıxan həmin tarixi saylarında Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqlarının müdafiəsi, torpaqların işğaldan qorunmasını təşkil etmək üçün əhalinin səfərbər edilməsi, vətənpərvərlik çağırışlarının xalqa çatdırılması, çaşqınlıq, təxribat yaratmaq niyyətlərinə ayıq-sayıq baxış kimi aktual məsələlər öz əksini tapmışdır. Eyni zamanda həmin dövrdə “Şərq qapısı”qəzeti Bakıda qanlı 20 Yanvar hadisələri zamanı sovet ordusu qüvvələri tərəfindən susdurulmuş, fəaliyyətinə qadağa qoyulmuş ölkə mətbuatının da funksiyalarını yerinə yetirərək, faciəli Azərbaycan həqiqətlərinin xalqa və qonşu ölkələr vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasına şərəflə xidmət etmişdir. Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandıqdan sonra “Şərq qapısı”qəzeti xalqımızın milli dövlətçilik və maarifçilik yollarındakı tarixi hünərini, zəfərlərini və böyük əzmini salnaməyə çevirməkdə davam edir”.

Azərbaycan yenicə dövlət müstəqilliyi əldə etdiyi illərdə ulu öndərin ilk olaraq məhz “Şərq qapısı” qəzetinə müsahibə verməsi qəzetin nəşri tarixinin qürurverici səhifələrindəndir. Bu, dahi şəxsiyyətin, bütövlükdə, odövrkü Azərbaycan mətbuatında ilk orijinal müsahibəsi, müstəqil demokratik mətbuatın inkişafının ilk təməl addımları idi. Ümummilli liderin sonrakı siyasi fəaliyyətində də bu mətbu orqanla yaxından bağlılığı, ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada – orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm, o vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıbdır”*** müdrik kəlamları muxtar respublikanın ictimai, siyasi, mədəni həyatında böyük rol oynayan qəzeti diqqətlə oxumaq fikrini müasir oxucuya da aşılayır, mətbuata maraq oyadır. Bir neçə ziyalı ilə həmin illərdən bu günümüzə gələn yolun keşməkeşləri haqqında həmsöhbət olduğumuzda illərboyu çəkilən zəhmət və dövlət qayğısı daha da gözə çarpır.

Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun böyük elmi işçisi, uzun illər mətbuatda çalışmış və fasiləsiz olaraq 26 il “Şərq qapısı” qəzetində kiçik vəzifədən başlayaraq pillə-pillə daha yuxarı vəzifələrə yüksələn, 10 il qəzetin baş redaktoru vəzifəsini daşıyan Sənubər Kərimovanın dediklərindən:

– O vaxtlar redaksiya və mətbəə şəraitsiz binalarda yerləşirdi. Mətbəə avadanlıqları köhnə və yararsız idi. Qəzet bəzən səhərə yaxın hazır olurdu. Sonradan redaksiya və mətbəə üçün yeni binalar inşa edildi. “Şərq qapısı” “Sovet Naxçıvanı – Sovetskaya Naxiçevan” adı ilə böyük formatda, gündəlik Azərbaycan və rus dillərində nəşr edilməyə başladı. Qəzetin rus dili variantı üçün jurnalist kadrları çatışmırdı. Amma redaksiya kollektivi bütün bu çətinliklərə sinə gərərək “Şərq qapısı”nı Azərbaycan Respublikasının müstəqilliyi dövrünə çatdırdı. Bu gün biz yüksək texnologiyalar əsrində yaşayırıq. İndi qəzet çıxarmağa nə var ki... Ölkəmizdə mətbuat azadlığı mövcuddur və bu, yüksək səviyyədə qorunur. Vətəndaşlarımızın söz və fikir azadlıqları Konstitusiyada təsbit olunmuşdur. Prezidentin Ehtiyat Fondundan kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi göstərilir. Jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün əhəmiyyətli tədbirlər görülür.

Sənubər xanım deyir ki, biz əsrlərin, minilliklərin qovuşduğu bir zamanda yaşayırıq. İndi hər bir dövlət, xalq öz milli xüsusiyyətlərini, milli-mənəvi dəyərlərini qorumağa, təbliğ etməyə çalışır. Çünki bunu etməsə, bir millət kimi sıradan çıxa bilər. Qloballaşan dünyada bir millət kimi qala bilməyimizin formulları məhz bunda təcəssüm olunur: Milli və mənəvi ideyalara, kökə, genə, yaddaşa qayıtmaq, çağdaş dünyada gənc nəsli unutqanlıqdan çəkindirmək. Bu, jurnalistlərin müqəddəs borcudur. Muxtar respublikanın ictimai-siyasi həyatını yaxından izlədiyimə görə əminliklə deyə bilərəm ki, bu gün Naxçıvanda jurnalistlərin sərbəst, demokratik şəraitdə fəaliyyət göstərmələri üçün unikal şərait yaradılıb, hərtərəfli dövlət dəstəyi göstərilir. Gənc jurnalistlərə isə məsləhətim odur ki, qələmlərini zamanın tələblərinə uyğun, aktual mövzularda sınasınlar, doğma diyarımızı layiqincə təbliğ edə bilsinlər. Yalnız o zaman müstəqillik dövrünün işığında milli mətbuatın inkişafı yollarında inamla irəliləyə bilərlər. Bu gün müstəqil Azərbaycan dövləti əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi-demokratik dövlət quruculuğu yolu ilə daha parlaq gələcəyə doğru inamla addımlayır. Mətbuatın inkişafına göstərilən diqqət və qayğı muxtar respublikamızda fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin də hərtərəfli inkişafını təmin edib. Bu qəzet gənc jurnalistlərin yetişməsi üçün əsl yaradıcılıq ocağıdır. “Şərq qapısı”nın təcrübəli jurnalistləri redaksiyada aylarla zəhmət sərf edib gənclərə qələm tutmağı, yazı yazmaq vərdişlərinə yiyələnməyi öyrədirlər. Onlar bir yaradıcı adamın yetişməsi üçün ən əsas lazım olanları – yaradıcılıq azadlığını, sərbəstliyini, özünəinam hissini və cəmiyyət qarşısında sosial məsuliyyət mühitini bura üz tutan hər bir gənc üçün təmin edə biliblər. Bu üç keyfiyyətə malik hər kəs qısa müddətdən sonra “Şərq qapısı” məktəbində yetişməyə başladığını hiss edə bilir. Yaradılmış şərait jurnalistlərin bundan sonra da yaxşı işləmələrinə, üzərlərinə düşən məsuliyyətli və şərəfli vəzifələrin öhdəsindən layiqincə gəlmələrinə imkan verəcəkdir. Qəzetin bugünkü kollektivinə bu estafeti gələcək nəsillərə çatdırmaqda uğurlar diləyirəm.

Şərur Rayon Həmkarlar İttifaqının sədri Ümbülbəni Musayeva da qeyd edir ki, “Şərq qapısı” qəzeti daim Naxçıvan ziyalılarının bilik mənbəyi, həyat güzgüsü olub və bir əsrə yaxındır ki, bu xalqa xidmət edir. Sevindirici haldır ki, özünün inkişaf və tərəqqi dövrünü yaşayan, öz simasını dəyişən qədim Oğuz elində gedən quruculuq proseslərini salnamələşdirən “Şərq qapısı” qəzetində bu gün yaxşı qələm sahibləri, ziyalılar yetişib.

Onu da deyək ki, 1990-1993-cü illər heç də əbəs yerə “Həqiqətlərin bərqərar olduğu dövr” adlandırılmır. Üçrəngli bayrağımız qədim və ulu diyarımızın səmasından anamız Azərbaycana qanad açdı. Qanlı Yanvar faciəsinə siyasi qiymətin sədası ilk dəfə buradan yüksəldi, Xocalı faciəsi “Xocalı soyqırımı” adlandırıldı. Dünya azərbaycanlılarının bir araya gəlməsi, Vətən naminə bir yumruq kimi birləşməsi qərarı buradan pərvazlandı. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə milli müstəqilliyimizə doğru aparan bu qətiyyətli tarixi addımlar isə öz əksini yerli mətbuatda tapdı. Artıq 25 ildir ki, bu qəzet muxtar respublikada təhsil, səhiyyə və mədəniyyətə göstərilən sonsuz dövlət qayğısından, bu gün kəndlə şəhərin eyni inkişaf tempinə malik olmasından, diyarımızın gözoxşayan əsrarəngiz gözəlliklərindən, təbii sərvətlərindən, ucaldılan minlərlə yeni tikinti obyektlərindən, quruculuq ünvanlarından söz açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında” 2001-ci il 29 mart tarixli Sərəncamından sonra yeni formatda və tərtibatda nəşr olunmağa başlayan “Şərq qapısı” qəzeti 2010-cu ildən həftədə beş dəfə rəngli nəşri ilə öz oxucularının görüşünə gəlir. Dinamik inkişafa hədəflənmiş dövlət siyasətini, xalqımızın tarixiliyini, milli və mənəvi mədəniyyətini yorulmaq bilmədən işıqlandırır. Qəzet hər nömrəsində oxucularını ümummilli liderimiz Heydər Əliyevin ***“Doğma, canımvarlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır”*** müdrik kəlamı ilə salamlayır və yeni bir mətbuat tarixinin yazarı olur.

Dünyada çox sayda sənət və minlərlə peşə var. Rəssam şəkil çəkir, bəstəkar musiqi bəstələyir, müəllim təhsilli gənclik yetişdirir, şair şeir yazır, yazıçı əsər. Jurnalistin işi isə dünəni, bu günü yazmaq, günümüzün salnaməsini yaratmaqdır. Mənim üçün yazmaq, sadəcə, bir qələm və ağ kağızdan ibarət deyil, yazmaq həm də Vətənini qəlbən sevməkdir. Bu sevgini, yazıb-yaratmaq həvəsini daha da yüksəklərə qaldıran isə dövlət qayğısını öz üzərimizdə hiss etməyimizdir. Yuxarıda ziyalılarımızın dedikləri də bunu təsdiq edir ki, son 25 ildə bu mətbu orqan geridə qoyduğu 70 ildə olmadığı qədər qayğı və diqqətlə əhatə olunub. Bu qayğı bu gün də davam edir.

Ötən il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında Ali Məclis Sədrinin Fərman imzalaması muxtar respublikada medianın yeni inkişaf mərhələsinin təməlini qoydu. Fondun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüşün keçirilməsi, Ali Məclis Sədrinin buradakı çıxışında ***“Bu gün qarşıda duran əsas vəzifə ondan ibarətdir ki, kütləvi informasiya vasitələrinin yaradıcı gücü ulu öndər Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafına yönəlsin”*** müdrik kəlamı, verdiyi tapşırıq və tövsiyələr biz mətbuat işçilərinin gələcək yoluna işıq saçmaqda, bu yolu nura qərq etməkdədir. Ali Məclis Sədrinin görüşün sonunda səsləndirdiyi ***“Sizinlə qürur duyuram!”*** fikri biz mətbuat işçiləri üçün dünyanın ən böyük xoşbəxtliyi, hədiyyəsi, zəhmətimizin ən yüksək zirvədə qiymətləndirilməsi idi.

***Bu günün mətbuat işçiləri xoşbəxtdirlər. Ona görə ki, Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi Naxçıvanın zəngin tarixi keçmişinin, dosta qürur, düşmənə gözdağı verən bu gününün və möhkəm təməllər üzərində dayanan parlaq gələcəyinin yazarlarıdır.***

**Ramiyyə ƏKBƏROVA**

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

# Onlayn elmi konfrans keçirilib

*“Naxçıvan” Universitetində “Azərbaycan və Türkiyə iqtisadi əlaqələri: mövcud vəziyyət və perspektivlər” mövzusunda onlayn elmi konfrans keçirilib.*



Konfransı giriş sözü ilə İdarəetmə fakültəsinin dekanı Naim Cahidzadə açaraq bildirib ki, qardaş Türkiyə Respublikası xarici iqtisadi əlaqələrin yaradılmasında Azərbaycanın potensial partnyorlarından biri kimi çıxış edir. İki ölkə arasındakı əlaqələrin araşdırılması zamanı aydın oldu ki, müasir dövrdə bu iki ölkənin əməkdaşlığı iqtisadiyyatın bir çox sahələrinin inkişafına şərait yaradıb. Son vaxtlar isə bu iqtisadi əməkdaşlıq xüsusən xarici ticarət və investisiya qoyuluşu istiqamətlərində daha çox özünü göstərir.

Sonra universitetin İdarəetmə kafedrasının müdiri İradə Bağırovanın, kafedranın müəllimi Mədinə Allahverdiyevanın və İdarəetmə fakültəsinin Maliyyə nəzarəti və audit ixtisasında təhsil alan I kurs tələbəsi Gültəkin Əhmədovanın müxtəlif mövzularda məruzələri dinlənilib.

Bildirilib ki, Türkiyənin Azərbaycanla əlaqələri yüksək strateji səviyyədədir. İki qardaş ölkə arasında qarşılıqlı etibar və həmrəylik əsasında formalaşan bu əlaqələr beynəlxalq platformalarda da davam edir. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və İslam Əməkdaşlıq Təşkilatında birgə əməkdaşlıq nümayiş etdirir.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**

***Ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birini də idmanın inkişafı təşkil edir. Bu sahədə maddi-texniki baza möhkəmləndirilir, regionlarda müasir idman kompleksləri istifadəyə verilir, mövcud idman obyektləri beynəlxalq standartlara uyğun yenidən qurulur. Naxçıvan Muxtar Respublikası ölkənin idman mərkəzlərindən biri hesab olunur. Təsadüfi deyil ki, muxtar respublikada keçirilən beynəlxalq səviyyəli idman yarışlarının və tədbirlərin sayı ildən-ilə artır.***



*Dövlət proqramı icra olunur*

# Naxçıvanda idman inkişafın yeni mərhələsində

Bununla yanaşı, Naxçıvanda bu sahədə həyata keçirilən tədbirlər idmanın bütün növlərinin inkişafına göstərilən dövlət qayğısından xəbər verir. Bu tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın məqsədi əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılmasından ibarətdir. Dövlət proqramında nəzərdə tutulan tapşırıqlar 37 bənddən ibarətdir.

1 fevral 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirə keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən vətənin müdafiəsinə hazırlayır. Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılan şərait idmanın kütləviliyinə, muxtar respublikamızda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır".***

Ötən dövrdə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrasına başlanılmış, əhalinin fiziki inkişafa, sağlam həyat tərzinə olan tələbatının ödənilməsi, idmanın kütləviliyinin təmin edilməsi məqsədilə müxtəlif idman yarışları təşkil edilmişdir. Ordubad rayon Dəstə kənd tam orta məktəbinin idman zalında karate-do üzrə oğlan və qızlar arasında rayon birinciliyi, Şahbuz rayonunda voleybol üzrə yoldaşlıq görüşü, yüngül atletika üzrə rayon birinciliyi keçirilmişdir. Culfa rayonunda keçirilən 4 idman tədbirində 346 idmançı iştirak etmişdir.

Muxtar respublikamızda inkişaf etdirilən idman növləri içərisində şahmatın özünəməxsus yeri vardır. Görülən işlər, keçirilən respublika və beynəlxalq səviyyəli idman tədbirləri şahmata marağın artmasına və Naxçıvan Muxtar Respublikasının bu idman növünün ən çox inkişaf etdiyi bölgələrdən birinə çevrilməsinə şərait yaratmışdır. Keçirilən şahmat yarışları Dövlət proqramında nəzərdə tutulan idmanın kütləviliyinin təmin edilməsi ilə bağlı tapşırığın icrası istiqamətində xüsusi əhəmiyyətə malikdir. Ötən dövrdə Naxçıvan Şahmat Mərkəzi tərəfindən məktəblilər arasında onlayn şahmat yarışları, Sədərək, Ordubad, Şərur rayon şahmat məktəblərində şahmat üzrə tempo turnirləri, Babək rayonunda zona birinciliyi keçirilmişdir.

Dövlət proqramının icrasına uyğun olaraq hərbi-idman oyunlarının təşkili diqqət mərkəzində olmuş, ümumtəhsil məktəbləri arasında "Şahin" hərbi-idman oyununun Naxçıvan şəhər mərhələsi keçirilmişdir.

Proqramda diqqəti cəlb edən tapşırıqlardan biri də Naxçıvan Muxtar Respublikasında ildə bir dəfə olmaqla "İdman festivalı"nın keçirilməsidir. Naxçıvan şəhərində yerləşən "Saat Meydanı" turistik istirahət mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş "İdman festivalı" keçirilmiş, festivalda idman federasiyalarının, uşaq-gənclər idman məktəblərinin, Naxçıvan Dövlət Universitetinin idman klubu və idman fakültəsinin, Şərur rayon Ağır Atletika Bölməsinin və "Xatun" Bədii Gimnastika İdman Klubunun nailiyyətləri nümayiş etdirilmişdir. Muxtar respublikada bədən tərbiyəsi və idman sahəsində xidmətlərə görə fərqlənən məşqçi-müəllimlər və idmançılar mükafatlandırılmışdır. Gənclərin potensialından istifadə edilməsi məqsədilə Gənclər Fondu tərəfindən "İdman könüllüləri"nin əsasnaməsi hazırlanmış, 20 könüllü gənc təlimlərə cəlb olunmuşdur.

Müasir dövrdə dünyada bir sıra ölkələr iqtisadiyyatlarını gücləndirmək, davamlı inkişafa nail olmaq üçün turizmin müxtəlif sahələrindən istifadə edirlər. Hazırda idman iqtisadiyyatın əsas gəlirgətirən sahələrindən biri olduğu üçün idman turizminə də xeyli üstünlük verilir. Müasirləşmə və əhəmiyyətli dəyişikliklər idman sektorunda da müəyyən yeniliklərin ortaya çıxmasına zəmin yaratmışdır. Dövlət proqramında muxtar respublikada idman turizminin inkişafı ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. Bu məqsədlə ötən dövrdə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində Xizək kompleksinin yaradılması istiqamətində işlər davam etdirilmiş, "Naxçıvan Muxtar Respublikasında İdman Turizmi" adlı kataloqun hazırlanmasına başlanılmışdır.

Muxtar respublikada yeniyetmələrin fiziki və mənəvi hazırlığının yüksəldilməsi, sağlamlığının qorunması, asudə vaxtların səmərəli təşkili daim diqqət mərkəzindədir. Ötən dövrdə Dövlət proqramının icrasına uyğun olaraq bütün təhsil müəssisələrində idman klublarının yaradılması, idmanın müxtəlif sahələri üzrə şagirdlərin idmana cəlb edilməsi məqsədilə Təhsil Nazirliyində şəhər (rayon) təhsil şöbələrinin müdirlərinin və uşaq-gənclər idman məktəblərinin direktorlarının iştirakı ilə kollegiya iclası keçirilmişdir. Kadr potensialı və mövcud şərait nəzərə alınaraq təhsil müəssisələrində yaradılacaq idman klubları müəyyənləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin dinləyici və kursantları üçün həftədə 2 dəfə idmanın əlbəyaxa döyüş və güləş növləri üzrə əlavə məşğələlər təşkil olunmuşdur.



*5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş "İdman festivalı" – 2020-ci il*



*"Heydər Əliyev kuboku" uğrunda keçirilən karate-do üzrə "Naxçıvan Open" beynəlxalq turniri – 2019-cu il*



*"Naxçıvan-2019" Beynəlxalq Şahmat Festivalı*

Naxçıvan Muxtar Respublikasında zərərli vərdişlərin qarşısının alınması ilə bağlı görülən işlər davamlı xarakter almışdır. İdman da bu sahədə xüsusi əhəmiyyətə malikdir və Dövlət proqramında bu məqsədlə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. İdmançıların sağlam ruhda böyümələri, zərərli vərdişlərdən uzaq durmaları məqsədilə 2020-ci il 27 fevral tarixdə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında voleybol üzrə Şərur və Ordubad rayon komandaları arasında yoldaşlıq görüşü keçirilmiş, görüşdə 25 idmançı iştirak etmişdir. Bununla yanaşı, muxtar respublikanın ümumtəhsil müəssisələrində yetkinlik yaşına çatmayanların və gənclərin asudə vaxtlarının səmərəli təşkili, bədən tərbiyəsi və idman vasitəsilə zərərli vərdişlərin qarşısının alınması istiqamətində "Sağlam həyat tərzi", "Tütün məhsullarının istifadəsinin zərərli təsirləri" və "İdmana cəlb olunma" mövzularında 33 maarifləndirici tədbir keçirilmişdir.

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindəndir. Onların reabilitasiyası və sosial adaptasiyasının təmin edilməsində diqqət cəlb edən vasitələrdən biri də idmandır. Ötən dövrdə Dövlət proqramının icrasına uyğun olaraq bu istiqamətdə də işlər davam etdirilmiş, sağlamlıq imkanları məhdud şəxslər arasında 19 fevral 2020-ci il tarixdə İlham Əliyev adına Olimpiya İdman Kompleksində armreslinq (qol güləşi) idman növü üzrə muxtar respublika birinciliyi, 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə boccia idman növü üzrə Kəngərli rayon birinciliyi və Paralimpiya Federasiyasının idmançıları arasında "Peleton" intellektual oyunu keçirilmişdir.

İdmanın inkişafı, ilk növbədə, bu sahədə peşəkar kadrların hazırlanması və peşə hazırlığının müasir standartlar səviyyəsində qurulmasından asılıdır. Proqramda nəzərdə tutulan tapşırığın icrası istiqamətində ixtisaslı kadr hazırlığına dəstək məqsədilə 17 fevral 2020-ci il tarixdən başlayaraq "Naxçıvan" Universitetinin Bədən tərbiyəsi və idman ixtisası üzrə təhsil alan 21 tələbəsinə ümumtəhsil müəssisələrində təcrübə keçmələri üçün şərait yaradılmışdır.

Yalnız fiziki cəhətdən sağlam gəncliklə dövlətin irəliləyişinə nail olmaq mümkündür. Gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi baxımından onların idmanla məşğul olmasının rolu əvəzsizdir. Eyni zamanda idman asudə vaxtın səmərəli və faydalı keçməsinə, şəxsi inkişafa təsir göstərən amillərdəndir. Dövlət proqramında istirahət parklarında sadə idman qurğularının quraşdırılması və idman guşələrinin yaradılması, əhalinin bütün təbəqələrinin bu qurğulardan istifadəsi üçün tədbirlərin görülməsi ilə bağlı tapşırıq müəyyən edilmişdir. Ötən dövrdə bu məqsədlə Sədərək rayon Heydərabad qəsəbəsindəki istirahət parkında sadə idman qurğuları yerləşdirilmiş, idman guşələri yaradılmış, parkda mini-idman meydançası gənclərin istifadəsinə verilmişdir. İdman infrastrukturunun gücləndirilməsi istiqamətində işlər davam etdirilmiş, mart ayından etibarən Ordubad şəhər stadionunun yenidən tikintisinə başlanılmışdır.

Təbliğat işi uşaq və gənclərin idmana cəlbinin kütləviləşməsi ilə bağlı başlıca şərtlər arasındadır. Ötən dövrdə yeniyetmə və gənclər arasında idman növlərinin "Facebook", "Instagram" və digər sosial şəbəkələrdə təbliğat işlərinin aparılması diqqətdə saxlanılmış, "Bilmədiklərimiz", "İdman vaxtı" adlı sosial şəbəkə aksiyaları vasitəsilə müxtəlif idman növlərinin üstünlükləri və evdə məşğul oluna biləcək ümumi inkişaf hərəkətləri barədə məlumatlar verilmişdir.

Təbliğat işində kütləvi informasiya vasitələrinin imkanlarından da geniş istifadə edilmişdir. Naxçıvan Dövlət Televiziyasında "İdman vaxtı" proqramının 6 sayı hazırlanaraq efirə təqdim edilmiş, Naxçıvan Dövlət Radiosunda "Həftənin idman icmalı"nın 4 sayı hazırlanmış, "Nahar vaxtı" verilişinin 1 sayı idman mövzusuna həsr olunmuş, "Şərq qapısı" qəzetində idman federasiyalarının fəaliyyəti, bütün idman növləri ilə bağlı maarifləndirici silsilə yazılar dərc olunmuş, muxtar respublikada keçirilən idman yarışlarının hər biri işıqlandırılmışdır.

*Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul edilmiş Fəaliyyət Proqramında da qeyd olunduğu kimi: "Gənclərin fiziki cəhətdən sağlam böyüməsində və asudə vaxtlarının səmərəli təşkilində bədən tərbiyəsi və idman əsas vasitə kimi götürülməlidir. Bu səbəbdən də idmanın inkişafı sahəsində qarşıya qoyulan vəzifələr və qəbul olunmuş Dövlət proqramı uğurla icra olunmalı, dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində fəaliyyət gücləndirilməlidir".*

**"Şərq qapısı"**

# Qaliblər mükafatlandırılıb

İyunun 3-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda "Rəssamı tanıyaq" və "Evimizi bəzəyən əsərlər" adlı onlayn videoçarx müsabiqələrinin mükafatlandırılma tədbiri keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək keçirilən müsabiqənin məqsəd və əhəmiyyətindən danışıb. Bildirilib ki, "Rəssamı tanıyaq" videoçarx müsabiqəsi gənc rəssamlar və onların əl işləri ilə tanışlıq, "Evimizi bəzəyən əsərlər" videoçarx müsabiqəsi isə sənətsevər insanlara kolleksiyaçılıq ruhunu aşılamaq məqsədi daşıyır.

Qeyd olunub ki, müsabiqə iştirakçıları hər iki istiqamət üzrə videoçarxlar hazırlayaraq Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə təqdim ediblər.

Sonra 6 gənc rəssam və sənətsevərin iştirak etdiyi hər iki müsabiqədə qaliblər mükafatlandırılıb. Naxçıvan Dövlət Universitetinin IV kurs tələbəsi Arzu Tarverdiyeva və Naxçıvan Müəllimlər İnstitutunun IV kurs tələbəsi Tofiq Fərzəliyev "Rəssamı tanıyaq" müsabiqəsinin qalibləri olublar. "Evimizi bəzəyən əsərlər" müsabiqəsinin qalibi isə sənətsevər Həqiqət Tahirova seçilib.

Hər iki müsabiqənin qalibləri hədiyyə və diplomlarla mükafatlandırılıblar.

Qeyd edək ki, müsabiqənin qalib videoçarxları Rəssamlar Birliyinin "Youtube" kanalında yerləşdirilib.

**Xəbərlər şöbəsi**

## Elan

"Naxçıvan Tikinti Materialları" ASC-nin növbəti ümumi yığıncağı Babək rayon Araz kəndində, cəmiyyətin idarə binasında 21 iyul 2020-ci il tarixdə keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

*1.Cəmiyyətin idarə heyəti və müşahidə şurası üzvlərinin seçilməsi.*

*2.Cari məsələlər.*

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 404